# ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİ KİMİ KİMYANIN TƏDRİS VAHİDLƏRİNƏ AİD REFERATLARIN HAZIRLANMASI

**A.C. Mahmudova**

*Gəncə Dövlət Universiteti, doktorant*

Şagirdlər dərslik üzərində zehni fəaliyyətləri nəticəsində əldə etdikləri bilikləri sistemləşdirmək üçün hər bir tədris vahidinə aid aşağıdakı tipdə referatlar hazırlamalıdır.

**Kimyanın ilk anlayışları tədris vahidinə aid referat**

Kimya-maddələr, onların xassələri və çevrilmələri haqqında elmdir

↓

Fiziki cisimlər nədən təşkil olunmuşdursa, ona maddə deyilir

↓ ↓ ↓

| Tərkibinə görə maddələr iki yerə bölünür | Maddələr atom və molekullardan ibarətdir | Bir maddəni digərlərindən fərqləndirən əlamətlər onun xassəsi adlanır |
|---|---|---|

↓ ↓ ↓ ↓ ↓ ↓

| Bəsit maddələr eyni növ atom-lardan ibarətdir | Mürək-kəb maddələr müxtəlif növ atomlar-dan ibarətdir | Atom maddənin kimyəvi cəhətdə bölünməyən ən kiçik hissəciyidir | Molekul maddənin tərkibi və xassəsini özün də saxlayan ən kiçik hissəciyidir və kimyəvi cəhətdən bölünəndir | Bir maddənin başqa maddəyə çevrilməsi kimyəvi xassə adlanır | Maddənin fiziki xassələri: aqreqat halı, rəngi, iyi, sıxlığı, $t_{qay.}$, $t_{ərimə.}$, həll olması, elektrik və istilik keçiriciliyi |
|---|---|---|---|---|---|

↓ ↓ ↓

| Maddə tərkibinin kimyəvi işarə və indekslərlə yazılışı kimyəvi formul adlanır.<br><br>Kimyəvi işarə<br>$NH_3$ $SO_2$<br>indeks | Kimyəvi elementin atomunun kütləsinin, karbon atomunun kütləsinin 1/12-dən neçə dəfə ağır olduğu-nu göstərən kəmiyyət nisbi atom kütləsi ($A_r$) adlanır. | Maddənin molekulunun, karbon atomunun kütləsinin 1/12-dən neçə dəfə ağır olduğunu göstərən kəmiyyət nisbi molekul kütləsi ($M_r$) adlanır. Onu hesablamaq üçün maddənin tərkibindəki elementlərin sayı $A_r$-ə vurulur və cəmlənir. Məsələn $M_r(Na_2CO_3)$ = $2\cdot23+1\cdot12+3\cdot16=106$. |
|---|---|---|

<table>
<tr><td colspan="4">Bizi əhatə edən mühitdə baş verən dəyişikliklər hadisə adlanır.</td></tr>
<tr><td>↓</td><td colspan="3">↓</td></tr>
<tr><td rowspan="2">Fiziki hadisə - bir maddədən yeni maddə alınmaması ilə baş verən hadisədir. Belə hadisələr nəticəsində cismin ölçüsü və forması, aqreqat halı dəyişir. Fiziki hadisələrə, ərimə donma, buxarlanma, distillə, kondesnləşmə, sublimasiya, kristallaşma və s. misal göstərmək olar.</td><td colspan="3">Bir maddədən yeni bir maddənin alınması ilə müşahidə olunan hadisələr kimyəvi hadisə adlanır. Kimyəvi hadisələrə, yanma, qıcqırma, çürümə, elektroliz, hidroliz, fotosintez, krekinq, korroziya və s. misal göstərmək olar.</td></tr>
<tr><td>Aşağıdakı əlamətlərlə müşahidə olunur.<br>- rəngin dəyişməsi<br>- iyin dəyişməsi<br>- çöküntünün əmələ gəlməsi və ya həll olması<br>- qazın ayrılması və ya udulması<br>- enerjinin ayrılması və ya udulması.</td><td>Maddə kütləsinin saxlanması qanununa tabe olur. Reaksiyaya daxil olan maddələrin kütlələri cəmi, əmələ gələn maddələrin kütləlari cəminə bərabərdir.<br>$m_{(baş.maddələr)\ üm.} =$<br>$=m_{(məhsul)üm.}$</td><td>Kimyəvi hadisələr kimyəvi tənliklərlə ifadə olunur. Kimyəvi formul və əmsallarla kimyəvi reaksiyaların yazılışına kimyəvi tənlik deyilir. Məsələn.<br>$Na_2O + H_2O \rightarrow$<br>$\rightarrow 2NaOH$</td></tr>
</table>

Atom-müsbət yüklü nüvədən və mənfi yüklü elektronlardan ibarət elektroneytral hissəcikdir.




| Hissəciklər | Kütləsi | Yükü | Sayca necəmüəyyən etmək olar. |
|---|---|---|---|
| $p^+$ | 1 | +1 | ədədi qiymətcə elementin sıra nömrəsinə (2) bərabərdir. |
| $e^-$ | 1/1837 | –1 | Protonların sayına bərabərdir. |
| $n^o$ | 1 | 0 | A=p+n; n=A-P; A=$A_r$. |

Neytral atom $^{A}_{p}X^{0}$ ; $N(e^-) = N(p)$

Kation $^{A}_{p}X^{n+}$ ; $N(p^-) < N(e^-)$; $N(e^-) = N(p) –$ yük

Anion $^{A}_{p}X^{n-}$ ; $N(e^-) > N(p)$; $N(e^-) = N(p) +$ [yük]

## Kimyada miqdari kəmiyyətlər

| Kəmiyyət və onun işarəsi | Anlayış və müəyyən edilməsi | Ölçü vahidi |
|---|---|---|
| Maddə miqdarı (ν) | Maddənin verilmiş hissəsindəki quruluş hissəciklərinin sayı haqqında təsəvvür yaradan kəmiyyətdir. 1 mol – karbon atomunun 12qr-da olan quruluş hissəciklərinin sayı qədər quruluş hissəciyi (atom, molekul, ion) olan maddə miqdarıdır. | mol, kmol, mmol. |
| Avoqadro sabiti ($N_A$) | 1 mol maddədəki hissəciklərin sayını göstərən kəmiyyətdir. $N_A = 6{,}02 \cdot 10^{23}$ | 1/mol; $mol^{-1}$ |
| Hissəciklərin sayı (N) | $N = \nu \cdot N_A$ | Yoxdur. |
| Molyar kütlə (M) | Maddənin1 molunun qramlarla kütləsidir. Ədədi qiymətcə nisbi molekul (atom) kütləsinə bərabərdir. $M = \frac{m}{\nu}$; $M = [M_r]$; $M = [A_r]$ | q/mol |
| Molyar həcm (Vm) | Qaz halında maddənin 1 molunun normal şəraitdə (t=0°C; 1 atm təzyiq) tutduğu həcmdir. $V_m = 22{,}4$ *l.* $V_m = \frac{V_{(qaz)}}{V}$ | Yoxdur. |
| Qazın nisbi sıxlığı | Bir qazın, digər qazdan neçə dəfə yüngül (ağır) olduğunu göstərən kəmiyyətdir. Başqa sözlə bir qazın sıxlığının digər qazın sıxlığından neçə dəfə ağır (yüngül) olduğunu göstərir. | Yoxdur. |
| Elementin kütlə payı (ω) | $\omega = \frac{A_r(El) \cdot n}{M_r} \cdot 100\%$ burada n-molekuldakı kütlə payı hesablanan atomların sayıdır. | Yoxdur. |
| Məhlulda həll olan maddənin məhlulda (qarışıqda) kütlə payı | Məhlulda: $\omega = \frac{m_{h \cdot m}}{m_{məh}} \cdot 100\%$ Qarışıqda: $m_{(qar)} = m_1 + m_2 + m_3 + ...$ $\omega = \frac{m_1}{m_1 + m_2 + m_3 + ...} \cdot 100\%$ $m_1$, $m_2$, $m_3$ qarışıqdakı komponentlərin kütləsidir. | Yoxdur. |
| Molyar qatılıq (C) | $C = \frac{\nu}{V}$; ν-həll olan maddənin mol miqdarı , V-məhlulun həcmidir (litrlə) | l/mol |
| Qaz qarışığında qazın həcm payı | $V_{(qarışıq)} = V_1 + V_2 + V_3 + .....$ $\varphi = \frac{V_1}{V_1 + V_2 + V_3 + \cdots} \cdot 100\%$ | Yoxdur. |

**Bəsit maddələr**
**(eyni növ atomlardan ibarətdir)**

| Metallar | | Qeyri metallar |
|---|---|---|
| Aqreqat halı | Hg-dən başqa hamısı bərkdir | Bərk halda olanlar ($S_8$; $J_2$;$P_4$; Maye halda olan $Br_2$ Qaz halında olanlar ($H_2$ $O_2$, $O_3$, $N_2$, $F_2$, $Cl_2$) |
| Metal parıltısı | Var | Yoxdur. |
| İstilik və elektrik keçiriciliyi | Keçirir | Əksəriyyəti elektriki keçirmir və ya pis keçirir |
| Plastikliyi | Var | Kövrəkdirlər |

Bəsit maddələrin sayı, kimyəvi elementlərin sayından çoxdur, çünki bir neçə element, bir neçə bəsit maddə əmələ gətirir. Yəni bir neçə element üçün allotropiya xarakterikdir.

Allotropiya – kimyəvi elementin bir neçə bəsit maddə əmələ gətirməsi qabiliyyətidir. Bu bəsit maddələr həmin kimyəvi elementin allotropik şəkildəyişməsi adlanır.

| Kimyəvi element | Allotropik şəkildəyişməsi | Təbiətdə yayılması | |
|---|---|---|---|
| | | Sərbəst halda | Birləşmə şəklində |
| O | Oksigen ($O_2$); ozon ($O_3$) | + | + |
| S | Plastik, kristallik | + | + |
| C | Almaz, qrafit, karbin, fülleren | + | + |
| Si | Kristallik, amorf | - | + |
| P | Ağ($P_4$), qırmızı, qara | - | + |

**Bəzi bəsit maddələrin xassələri:**

Oksigen ($O_2$) Rəngsiz, iysiz, suda az həll olan qazdır.
Ozon ($O_3$) Solğun bənövşəyi rəngli, kəskin iyli, suda yaxşı həll olan qazdır.
Almaz (C) Rəngsiz kristallik maddədir, çox bərkdir, istiliyi və elektriki keçirmir.
Qrafit (C) Tünd boz rəngli kristallik maddədir, yumşaqdır, istiliyi və elektriki keçirir.

**Mürəkkəb maddələr**

| Oksidlər | Turşular | Əsaslar | Duzlar |
|---|---|---|---|
| Biri oksigen olmaqla iki elementdən ibarət mürəkkəb maddələrdir. | Hidrogen və turşu qalığından ibarət mürəkkəb maddələrdir. | Metal və hidroksid ionlarından ibarət mürəkkəb maddələrdir: $Me(OH)_n$ | Metal ionları və turşu qatılığından ibarətdir. |
| Əsasi oksidlər: $Li_2O$; $Na_2O$; $K_2O$; CaO; BaO; MgO; FeO; CrO; MnO | Bir əsaslı turşular:HF; HCl;HBr,HJ; $HNO_3$;$HPO_3$;$H_3PO_2$ və s. | Suda həll olanlar (qələvilər) LiOH, NaOH, KOH, $Ca(OH)_2$, $Ba(OH)_2$ | Suda həll olmayan duzlar: $MgCO_3$, $CaCO_3$; FeS, CuS; $CaSO_4$, $BaSO_4$, $PbSO_4$ , AgCl və s. |
| | İkiəsaslı turşular: $H_2S$, $H_2SO_3$, $H_2SO_4$; $H_2CO_3$; $H_2CrO_4$; $H_2SiO_3$; $H_3PO_3$ | Suda həll olmayan əsaslar: $Mg(OH)_2$; $Fe(OH)_2$, $Cr(OH)_2$, $Cu(OH)_2$. | |
| Turşu oksidləri: $CO_2$; $SO_2$; $SO_3$; $NO_2$; $P_2O_3$; $P_2O_5$; $N_2O_3$; $N_2O_5$; $Cl_2O_7$; $Mn_2O_7$; $SiO_2$. | Üçəsaslı turşular $H_3BO_3$; $H_3PO_4$ | Suda həll olmayan amfoter əsaslar: $Be(OH)_2$, $Zn(OH)_2$, $Al(OH)_3$, $Fe(OH)_3$, $Cr(OH)_3$, $Pb(OH)_2$ | Suda həll olanlar: $Na_2CO_3$, $KrCO_3$ $Na_3PO_4$; $Kr_3PO_4$ $Na_2SiO_3$; $KrSiO_3$; $Na_2S$, $K_2S$ və s. |
| | Dördəsaslı turşular: $H_4P_2O_7$. | | |
| Amfoter oksidlər. BeO, ZnO; $Al_2O_3$, $Fe_2O_3$, $Cr_2O_3$; PbO; $PbO_2$; $MnO_2$ | | | |
| Qarışıq oksidlər: $Fe_3O_4$; $Mn_2O_3$; $Pb_2O_3$. | | | |

## Kimyəvi reaksiyaların təsnifatı

| | |
|---|---|
| **I.İstilik effektinə görə.** | İstiliyin ayrılması ilə gedən ekzotermik reaksiyalar $C + O_2 \rightarrow CO_2 + Q$<br>$N_2 + 3H_2 \xrightarrow{t, kat} 2NH_3 + Q$ |
| | İstiliyin udulması ilə gedən endotermik reaksiyalar $N_2 + O_2 \xrightarrow{t} 2NO -Q$<br>$CaCO_3 \xrightarrow{t} CaO + CO_2 -Q$ |
| **II.Reaksiyaya daxil olan və alınan maddələrin sayına görə** | Birləşmə reaksiyası – iki və daha çox maddədən bir yeni maddə alınır.<br>$SO_3 + H_2O \rightarrow H_2SO_4$; $4NO_2 + O_2 + 2H_2O \rightarrow 4HNO_3$ |
| | Parçalanma reaksiyasi – bir maddədən iki və daha çox maddə alınır.<br>$MgCO_3 \xrightarrow{t} MgO + CO_2$;<br>$Cu_2(OH)_2CO_3 \rightarrow 2CuO + H_2O + CO_2$ |
| | Əvəzetmə reaksiyası – bəsit maddənin atomları mürəkkəb maddənin atomlarından birini əvəz edir.<br>$Fe + H_2SO_{4\,(duru)} \rightarrow FeSO_4 + H_2$;<br>$2Na + 2H_2O \rightarrow 2NaOH + H_2$<br>$CO_2 + 2Mg \xrightarrow{t} 2MgO + C$;<br>$2NaBr + Cl_2 \rightarrow 2NaCl + Br_2$ |
| | Dəyişmə (mübadilə) reaksiyası – iki mürəkkəb maddə rasında tərkib hissələrinin dəyişməsi ilə gedir.<br>$Na_2CO_3 + CaCl_2 \rightarrow CaCO_3\downarrow + 2NaCl$<br>$CaO + H_2SO_4 \rightarrow CaSO_4\downarrow + H_2O$ |
| | Neytrallaşma reaksiyası – turşu və əsas arasında normal duz və su alınması ilə gedən dəyişmə (mübadilə) reaksiyasıdır.<br>$NaOH + HCl \rightarrow NaCl + H_2O$;<br>$Al(OH)_3 + 3HCl \rightarrow AlCl_3 + 3H_2O$. |
| **III. reaksiyaya daxil olan maddələrin aqreqat halına görə.** | Heterogen reaksiyalar - reaksiyaya daxil olan və alınan maddələr müxtəlif aqreqat halındadır.<br>$C(b) + O_2(q) \rightarrow CO_2(q)$;<br>$Zn\ (b) + FeSO_4(məh) \rightarrow ZnSO_4(məh) + Fe(b)$ |
| | Homogen reaksiyalar – reaksiyaya daxil olan və alınan maddələr eyni aqreqat halındadır (ya qaz; ya da maye)<br>$2CO(q) + O_2(q) \rightarrow 2CO_2(q)$; $N_2(q) + 3NH_3(q)$<br>$CH_3COOH(m) + CH_3OH(m) \rightarrow CH_3COOCH_3(m) + 3O_2$ |
| **IV. Katalizator iştirakına görə.** | Katalitik reaksiyalar – katalizator iştirakı ilə gedir.<br>$2H_2O \xrightarrow{MnO_2} 2H_2O + O_2$;<br>$2KClO_3 \xrightarrow{MnO_2, t} 2KCl + 3O_2$ |
| | Katalitik olmayan reaksiyalar – katalizator iştirak etmir:<br>$H_2 + Cl_2 \xrightarrow{hv} 2HCl$; $S + O_2 \xrightarrow{t} SO_2$<br>Bütün dəyişmə reaksiyalari |

| | |
|---|---|
| **V. İstiqamətinə görə.** | Dönməyən reaksiyalar – yalnız bir istiqamətdə gedir.<br>$Na_2SO_4 + Ba(NO_3)_2 \rightarrow BaSO_4\downarrow + 2NaNO_3$ |
| | Dönən reaksiyalar – verilmiş şəraitdə hər iki istiqamətdə gedir.<br>$N_2 + 3H_2 \rightleftarrows 2NH_3$; $H_2 + Cl_2 \rightleftarrows 2HCl$ |
| **VI.Element atomlarının oksidləşmə dərəcəsinin dəyişməsinə görə** | Oksidləşmə - reduksiya reaksiyaları – oksidləşmə dərəcəsi dəyişir. Bütün yanma, əvəzetmə reaksiyaları, elektroliz, korroziya. |
| | Oksidləşmə dərəcəsinin dəyişməməsi ilə gedən reaksiyalar; dəyişmə (mübadilə), neytrallaşma reaksiyaları, hidroliz. |

**Qarışıqlar**

**Eynicinsli (homogen). ←** Qarışıqlar **→ Müxtəlifcinsli (heterogen) qarışıqlar**

**Eynicinsli (homogen).**

| Qarışığı əmələ gətirən maddələrin hissəcikləri nə gözlə, nə də mikroskopla görünmürsə belə qarışıqlara eynicinsli (homogen) qarışıqlar deyilir. | |
|---|---|
| Qarışqalar | Ayrılma üsulu |
| Qaz+qaz(hava) | Fraksiyalı distillə |
| Qaz+su<br>HCl+su<br>HBr+su<br>HJ+su<br>$NH_3$+su | Buxarlanma:<br>Ilk növbədə qarışıqdan qaz ayrılır. |
| maye+maye<br>metamol+su<br>etanol+su | Distillə:<br>Ilk növbədə qarışıqdan spirt ayrılır. |
| Bərk+maye<br>Qələvi+su<br>Şəkər+su<br>NaCl+su<br>$Ca(NO_3)_2$+su | Buxarlanma:<br>Ilk növbədə qarışıqdan su ayrılır. |
| Maye+maye<br>Neft<br>Benzin<br>kerosin | Fraksiyalı distillə, xromotoqrafiya |

**(heterogen) Müxtəlifcinsli qarışıqlar**

| Qarışığı əmələ gətirən maddələrin hissəcikləri həm mikroskopla, həm də gözlə seçilir. | |
|---|---|
| Qarışıqlar | Ayrılma üsulu |
| Qaz-maye<br>Duman | Kondensləşmə |
| Maye-maye<br>(emulsiya)<br>Neft-su<br>Benzin-su<br>Kerosin+su<br>Benzol+su<br>Anilin+su | Ayırıcı qıfla |
| Bərk+maye<br>(suspenziya)<br>Təbaşir+su<br>Gil+su | Çökdürmə, süzmə, filtirləmə, durultma. |
| Bərk+maye<br>(suspenziya);<br>Qum+su<br>$CaSO_4$+su<br>AgCl+su<br>$BaSO_4$+su | Çökdürmə, süzmə, filtirləmə, durultma. |
| Bərk+maye;<br>Kükürd+su | Süzmə, filtirləmə |

**Dispers sistemlər**
**(Bir maddənin kiçik hissəciklər şəklində başqa maddə içərisində paylanmasından alınan sistemlərdir)**

| Asılqanlar (Müxtəlifcinsli qarışıqlardır. | Kolloid məhlul. | Həqiqi məhlul eynicinsli-homogen qarışıqdır. |
|---|---|---|
| Paylanan hissəciklərin ölçüsü 100nm-dən böyük olur) | Paylanan hissəciklərin ölçüsü 1-100nm arasında olur. | Qaz+maye<br>HCl+su<br>HBr+su<br>HJ+su<br>$NH_3$+su |
| I. Emulsiya<br>(maye+maye müxtəlif cinsli qarışıqdır).<br>Neft+su<br>Kerosin+su<br>Benzin+su<br>Bitkiyağı+su<br>Benzol+su<br>Anilin+su | Nişasta yapışqanı<br>Silikat yapışqanı | Maye+maye<br>Metanol+su<br>Etanol+su<br>$HNO_3$+su<br>$H_2SO_4$+su |
| II. Suspenziya<br>Bərk-maye müxtəlifcinsli qarışıqdır.<br>Təbaşir +su<br>Gil+su | | Bərk+maye<br>Qələvi+su<br>Həll olan duz+su<br>$H_3PO_4$+su |

**Məhlulun doymuşluğu maddənin həll olmasından asılıdır.**

↓

**Həllolmasına görə maddələr:**

| Yaxşı həll olanlar: | Az həll olan maddələr. | Praktiki həll olmayan maddələr. |
|---|---|---|
| 1*l* suda 10qr-dan çox həll olan maddələr. | 1*l* suda 1-10qr arasında maddələr. | 1*l* suda 1qr-dan az həll olan maddələr. |
| NaCl, $Na_2SO_4$, $KNO_3$, $FeSO_4$ və s. | $CaSO_4$, $MgSO_3$, və s. | $Fe(OH)_3$ $BaSO_4$, AgCl, $PbCl_2$, $Ca(OH)_2$ və s. |

**Həqiqi məhlullar**
**(Həll olan maddə və həlledicinin hissəciklərindən və ya onların qarşılıqlı təsir məhsullarından ibarət eynicinsli (homogen) sistemlərdir**

↓

| | | | |
|---|---|---|---|
| Həllolma fiziki-kimyəvi prosesdir. Həll olan maddənin hissəciklərə ayrılması kimyəvi, ayrılmış hissəciklərin hidratının diffuziyası fiziki prosesdir. | Həll olan maddənin miqdarına görə.<br>I.Duru məhlul: Həll olan maddənin miqdarı həlledicidən çox-çox azdır.<br>II. Qatı məhlul: Həll olan maddə və həlledicinin miqdarı bir-biri ilə müqayisə ediləndir. | Doymuşluğuna görə.<br>I.Doymuş məhlul: Verilmiş temperaturda həll olan maddənin əlavə miqdarı həll olmur.<br>II. doymamış məhlul: Verilmiş temperaturda həll olan maddənin əlavə edilmiş miqdarı həll ola bilir.<br>III.İfrat doymuş məhlul. Verilmiş temperaturda həll olan maddənin miqdarı doymuş məhluldakından çox olur. | Aqreqat halına görə.<br>I.Bərk məhlullar: Metal ərintiləri<br>II.Maye məhlullar. Duzların qələvilərin suda məhlulu.<br>III. Qaz+qaz qarışığı Məsələn hava. |

**Elektrolitik Dissosiasiya.**

| | |
|---|---|
| Qeyri-elektrolit-suda həll etdikdə və ya əritdikdə elektrik cərəyanını keçirməyən maddələrdir. Bütün növ spirtlər, karbohidratlar, suda az həll olan və olmayan maddələr. | Elektrolitlər-suda həll etdikdə və əritdikdə elektrik cərəyanını keçirən maddələrdir. suda həll olan bütün duzlar, qələvilər, qüvvətli turşular. |
| ↓ | ↓ |
| Kovalent polyar və az polyar kimyəvi rabitəli maddələrdir | İon və qüvvətli polyar kovalent rabitəli maddələrdir |

## Elektrolitik dissosiasiya nəzəriyyəsinin əsas müddəaları

(elektrolitin ionlara ayrılması prosesi elektrolitik dissosiasiya adlanır).

1) Elektroliti əritdikdə və suda həll etdikdə ionlarına ayrılır (dissosiasiya edir).
   Həllolma zamanı dissosiasiyaya səbəb sudur, çünki o, kristal qəfəsi və kimyəvi rabitəni qırır, ərimə zamanı isə dissosiasiyaya səbəb yüksək temperaturdur.

2). Elektrik cərəyanı təsirindən ionlar istiqamətlənmiş hərəkət edir, müsbət yüklü ionlar (kationlar) katoda, mənfi yüklü ionlar (anionlar) anoda doğru hərəkət edir.

3) ionların xassələri, onları əmələ gətirən atomların xassələrindən fərqlənir.

4) elektrolitik dissosiasiya prosesi – dönən prosesdir, ona görə də dissosiasiya dərəcəsi (α) ilə xarakterizə edirlir. Bu kəmiyyət elektrolitin neçə molekulunu dissosiasiya etdiyini göstərir.

$$\alpha = \frac{n}{N} \cdot 100\%$$

$$\alpha = \frac{Vdis}{V\,üm} \cdot 100\%$$

n-elektrolitin dissosiasiya etmiş molekulunun sayı;
N-elektrolitin həll olmuş ümumi molekullarının sayını;
$\nu_{dis}$ – elektrolitin dissosiasiya etmiş mol miqdarını;
$\nu_{üm}$-elektrolitin həll olmuş ümumi mol miqdarını göstərir.

### İstifadə edilmiş ədəbiyyat:

1. M.M.Abbasov, V.M.Abbasov və b. VII siniflər üçün kimya dərsliyi. Bakı, Azpoliqraf, 2017, 94 s.
2. M.M.Abbasov, V.M.Abbasov və b. VIII siniflər üçün kimya dərsliyi. Bakı, Azpoliqraf, 2018, 200 s.

*Айпара Махмудова*

**Составление рефератов как самостоятельных работ учащихся по отдельным разделам химии**

**РЕЗЮМЕ**

В статье представлены образцы методов составления рефератов по отдельным разделам общей химии.

*Aypara Mahmudova*

**Preparation of the abstracts on chemistry teaching units as students' independent works**

**SUMMARY**

The examples of the methods for preparation of abstracts on general chemistry teaching units are presented in the article.

**Açar sözlər:** referat, müstəqil iş, kimyəvi formullar əsasında hesablamalar, kimyanın nəzəri əsasları.

**Ключевые слова:** реферат, самостоятельная работа, расчеты на основе химических формул, теоретические основы химии.

**Key words:** abstract, independent work, calculations on chemical formulas, theoretical bases of chemistry.